# İRAN Milli Kitabxanası



**Bakının İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə bağlı Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hazırlanmış geniş tədbirlər planına uyğun olaraq M.F.Axundov adına Milli Kitabxanada bir sıra işlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.**

İslam ölkələrinin kitabxana tarixinə nəzər salmaq, bu sahədə əldə edilmiş uğurları işıqlandırmaq, oxucuların diqqətini elm, bilik, informasiya və fasiləsiz təhsil müəssisəsi olan kitabxana işinə yönəltmək tədbirlərin bir qolunu təşkil edir.

İran İslam Respublikası (İİR) Qərbi Asiya qitəsində yerləşir. Sahəsi 1648000 kvadrat km., əhalisi isə 65 mln. nəfərdir. Etnik tərkibi: farslar - 51%, azərbaycanlılar - 34 %, digər millətlər - 15%.

İslam inqilabı üç min illik monarxiya quruluşuna və Məhəmməd Rza Pəhləvinin şahlıq rejiminə son qoydu. 1979-cu il martın 30-da keçirilən ümumxalq referendumu nəticəsində ölkə İslam Respublikası elan edildi.

İslam inqilabından sonra da mədəniyyətin inkişafına islam dəyərlərinin müəyyən təsiri olmuşdur. Hətta İran mədəniyyətinin və tarixinin simvolu sayılan "Şahnamə" əsərinin oxunması belə qadağan idi. İnqilabın ilk illərində Qərb filmlərinə baxmağa, dünyəvi musiqilərə qulaq asmağa icazə verilmirdi. Sonralar açılan teatr və kino repertuarlarını dini, inqilabı və hərbi mövzular təşkil edirdi.



90-cı illərin əvvəllərindən başlayaraq nəinki ənənəvi, hətta müasir incəsənət yenidən dirçəlməyə başladı. Müasir dünya incəsənətinə İran kinematoqrafları öz töhfələrini verməklə milli kino sənətini daha da zənginləşdirdi. Sonralar keçmiş şah saraylarında muzeylər və kitabxanalar açılmağa başladı.

İranda kütləvi kitabxanaların yaradılması ənənəsi olmasa da, iri məscid və gimnaziyaların tərkibində xüsusi kitabxanalar şəbəkəsi mövcuddur.

Ölkə Prezidenti tərəfindən rəhbərlik edilən Milli Arxiv və İran İslam Respublikasının Milli Kitabxana təşkilatı elmi, tədqiqat, tədris və informasiya müəssisələri kimi özlərini ifadə edir.

Təşkilatın nizamnaməsi İslam Şurasının Məclisi tərəfindən təsdiq edilmişdir. Milli Kitabxananın əsası günəş tarixi hesabı ilə 1316-cı ildə (1937) qoyulmuşdur. 1979-cu ildə kitabxana xidmətləri mərkəzi və 2000-ci ildə isə İslam inqilabının mədəniyyətə aid sənədlər Təşkilatı da Milli Kitabxanaya birləşdirildi. Hazırda bu təşkilat ayrı-ayrı binalarda - İranın Milli Kitabxana binasında və İranın milli arxivlərini saxlayan binada fəaliyyət göstərir.

Kitabxana üçün pulsuz nəqliyyat təyin edilmişdir. Həmin nəqliyyat növü bütün iş günü müddətində oxucuları Mirdamad metro stansiyasına, oradan da Milli Kitabxanaya gətirir.

Oxucular kitabxananın müxtəlif zallarından onlara lazım olan informasiyanı asanlıqla əldə edə bilərlər.

**Xarəzmi adına oxu zalı**

Bu zalın fondunda əlyazma əsərlər, əlyazma sənədlər, litoqrafik nəşrlər, həmçinin qiymətli və nadir kitablar saxlanılır. Şöbənin qiymətli fondu İranın və dünya əlyazma nəşrlərinin əvəzolunmaz inciləri hesab edilir. Onlardan çoxu İranın elm və dahi şəxslərinə aiddir. Bu nadir əlyazma külliyyatına həmçinin xarici nəşrlərin ilk fars dillərinə tərcümələri və dahi İran ustalarının xəttatlıq sənətinin nümunələri aiddir.

**Nəsrəddin Tusi adına oxu zalı**

Cari dövri nəşrlər şöbəsi Milli Kitabxana ilə birlikdə yaradılmış və İran mətbuat arxivinin təkmilləşdirilməsinə xidmət edir. Şöbənin fondunda tədqiqatçıların istifadəsi üçün nəzərdə tutulan qədim və cari dövri nəşrlərin yazıları saxlanılır. Fars dilindən başqa, ərəb və ingilis dilində çap olunmuş dövri mətbuat səhifələrində çıxan məqalələr də toplanılır.

**Kamal-əl-mülk**

Zalın fondunda tələbə-magistrantların diplom işləri, doktorluq dissertasiyaları, xəritələr, 155000 şəkil və slayd saxlanılır.

**İbn Nadim adına oxu zalı**

Fond ümumi məlumatları əks etdirən nəşrlər: ensiklopediyalar, lüğətlər, dahi şəxsiyyətlərin kitabları, biblioqrafik nəşrlər, mövzu kataloqları və s. ilə zəngindir.

**Razi adına oxu zalı**

Bu fond astronomiya, fizika, kimya, biologiya, geologiya, kompüter texnikası, mühəndislik işi, kənd təsərrüfatı və digər dəqiq elmlər sahəsində ədəbiyyatı özündə əks etdirir.

**Uşaqlar və yaşlılar üçün xüsusi oxu zalı**

Zal əsasən böyüməkdə olan uşaqlara xidmət edir. Onlar üçün hər bir şərait yaradılmış və zal kompyuter texnikası ilə təchiz olunmuşdur.

**İbn Sina adına oxu zalı**

Humanitar elmlər sahəsində çalışan oxuculara xidmət göstərir. Digər zallardan fərqli olaraq bu zalın fondunda ingilis dilində çap olunmuş nadir nəşrlər saxlanılır.

**Söhrəvardi adına oxu zalı**

Xarici turistlərin yol qeydləri və gündəlikləri bu fondun maraqlı və cəlbedici məlumatlarındandır. Fondda həmçinin fars və ərəb dillərində yazılmış iranşünaslığa və islamşünaslığa aid dissertasiyalar da toplanmışdır.

**Milli Kitabxana tarixinə bir nəzər**

Qeyd etmək lazımdır ki, yeni təqvimlə 1852-ci ildə Tehranda Politexnik texnikumu açıldı. 20 ildən sonra texnikumun tərkibində kiçik kitabxana da fəaliyyət göstərməyə başladı. Məhz həmin kitabxana Milli Kitabxananın özəyi oldu.

**Milli Kitabxananın ilk binası**

1934-cü ildə Kütləvi Maarifləndirici kitabxananın direktoru Mehdi Bayani təyin olundu. O, kitabxananı kiçik məkandan çıxartmaq üçün dövlət orqanları qarşısında məsələ qaldırdı. Maarif Nazirliyinə təqdim olunan müraciətdə Mehdi Bayani İranda Milli Kitabxananın yaradılması təklifini

irəli sürdü və onun təklifi qəbul olundu. İranın Tarix muzeyinin şimal hissəsində kitabxananın tikintisi üçün 3500 kv. m. sahə ayrıldı. 1936-cı ildə Əliəsgər Hikməti həmin sahədə xüsusi kitabxana tikdirməyi Rza şahdan xahiş etdi. Kitabxananın dahi fars şairi Firdovsinin adına layiq tikilməsi üçün fransız memarı Andre Qudarı İrana dəvət edildi. Layihəyə görə Tarix muzeyi və yeni tikiləcək kitabxana binası oxşar olmalı və memarlıq cəhətdən bir-birini tamamlamalı idi.

1937-ci ildə tikintisi başa çatan kitabxanaya Firdovsinin adı verildi.

Hicri tarixi ilə 1316-cı ildə Rza şah tarixi fərmana imza atdı. Həmin fərmana əsasən Şah kitabxanasına daxil olan bütün təkrar nəşrlər Kütləvi Maarifləndirici Kitabxanaya verilməli və nəticədə bu kitabxananın fondunu dayanaqlı edilməli idi. 13712 nüsxə əlyazma və çap məhsulları, həmçinin əvəzolunmaz qiymətli sənədlər Kütləvi Maarifləndirici Kitabxanaya verildi. Şah kitabxanasından təkrar nəşrlərin Kütləvi Maarifləndirici Kitabxana fonduna verilməsi ölkə ziyalılarına böyük təsir göstərdi. Şahın humanist addımını qiymətləndirən Əzizxan Nedai də öz şəxsi kitabxanasını həmin bilik ocağına təmənnasız verdi. Beləliklə, Mehdi Bayaninin böyük səyləri nəticəsində kitabxana fondu 30000 əlyazma və çap məhsulu ilə daha da zənginləşdi.

**Milli Kitabxananın yeniləşmə mərhələsi**

Kitabxana yeni bina ilə təhciz olunsa da yer azlığı özünü qabarıq surətdə biruzə verirdi. Ona görə də kitabxana direktoru fransız memarı Andre Qudarla fasiləsiz yazışmalar aparmağa məcbur oldu. Bu, İran kitabxana tarixinə möhtəşəmlik gətirən yeni binanın tikilməsi ilə bağlı idi. 570 kv. m. sahəyə malik bina məkan etibarı ilə bütün tələblərə cavab verməli idi. Ancaq kitabxana sonrakı onilliklər ərzində də yer qıtlığından əziyyət çəkmək problemi ilə üzləşdi. 1961-ci ildə İranın mədəniyyət tarixində fövqəladə hadisə baş verdi. Tehran Universitetində kitabxanaşünaslıq kafedrasının təsis edilməsi ölkədə kitabxana sahəsində böyük imkanların startına rəvac verdi. Ölkədə kitabxanaçı kadrlarını yetişdirməsinə başladıqdan sonra Milli Kitabxana elmi və beynəlxalq prinsipləri rəhbər tutaraq kitabxanalararası qarşılıqlı əlaqələrin yaradılmasına, xarici kitabxanaların iş təcrübəsindən bəhrələnməsinə səy göstərirdi. Ancaq Beynəlxalq Kitabxana Federasiyası (İFLA) Milli Maarifləndirici Kitabxananı milli status çərçivəsində qəbul etmirdi. Ona görə də İran dövləti yeni Milli Kitabxananın təsis edilməsi üçün İFLA-dan ölkəni müdafiə etməsini xahiş etdi. 1973-cü ildə İran nümayəndələri ölkənin mədəni tarixində mühüm rola malik Milli Kitabxananın yaradılması üçün İFLA direktoru cənab Liboriyaya məktubla müraciət edərək milli kitabxana layihəsini hazırlamağı İran kitabxana mütəxəssislərinə tapşırmağı xahiş etdi.

İFLA müraciəti müsbət qarşıladı və Milli Kitabxananın təsis edilməsi üçün lazım olan layihə sənədlərini Kitabxanaşünaslıq Mərkəzinə göndərdi. 1975-ci ildə ABŞ-ın Kitabxanaşünaslıq İnstitutunun rektoru 60 nəfər memar və aparıcı kitabxana mütəxəssisini bir ay müddətinə İrana göndərərək ölkənin memarlıq və kitabxana işini öyrənməyi məsləhət bildi. Bu əməkdaşlığın nəticəsində mütəxəssislər 350000 kv. m. sahəyə malik yeni kitabxana binasının tikilməsi üçün İran dövlətinə layihə təqdim etdi. Təqdim edilən layihədə İFLA texniki məsələlər üzrə komitəsi və İran kitabxanaçıları üçün böyük maliyyə vəsaiti tələb olunduğuna görə məqsədəuyğun sayılmadı. 94000 kv. m. olan kitabxana binasının tikinti layihəsi komissiya üzvləri tərəfindən qəbul olundu. Tenderdə alman tikinti kampaniyası qalib gəldi. Kampaniya tədqiqat işlərini yekunlaşdıran zaman ölkədə İslam İnqilabı qələbə çaldı və ona görə də işlər dayandırıldı. İnqilabdan sonra 1979-cu ildə Milli Kitabxana statusunu nizamlamaq istiqamətində ilk addımlar atıldı. Mədəniyyət və Ali Təhsil Nazirliyi Kitabxanaşünaslıq Xidməti Mərkəzinin və İran Milli Kitabxanasının vahid mərkəzdə birləşdirilməsi ideyasına tərəfdar çıxdı.

Köhnə bina darısqal olduğuna görə Milli Kitabxana üçün yaramırdı. Nəhayət, 1990-cı ildə uzun müzakirələrdən sonra yeni kitabxana binasının tikilməsi qərara alındı. Sxemlər, çertyojlar yenidən korrektə edildi. 90000 kv. m. sahəsi olan kitabxana binası Tehran şəhərinin Abbasabad rayonunda tikilməyə başladı. 2004-cü ildə kitabxana binasının birinci korpusu, 2006-cı ildə isə ikinci korpusu təhvil verildi.

*Davamı 69-cu səhifədə*